# "QALA SIĞORTA" ASC-NİN

# KEYFİYYƏT SİYASƏTİ

"Qala Sığorta" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi bəyan edir ki, amalımız və məqsədimiz beynəlxalq tələblərə əsasən müştərilərin peşəkar və keyfiyyətli sığorta xidmətləri ilə təmin olunması üçün onlara sığorta təkliflərinin təqdim olunması istiqamətində, habelə sığorta hadisələri zamanı dəymiş zərərin qiymətləndirilməsində ədalətli rəftar olunması və sığorta ödənişinin mümkün olan ən tez zamanda ödənilməsini həyata keçirməklə bu sahədə lider mövqe tutmaq və sifarişçinin böyük etimadını qazanmaqdır.

İdarəetmə sistemlərini daim təkmilləşdirmək və inkişaf etdirmək məqsədi ilə "Qala Sığorta" ASC-nin rəhbərliyi bəyan edir:

- ❖ Azərbaycan Respublikasının Dövlət Qanun və Qaydalarında, "ISO 9001 Keyfiyyət" və "ISO 10002 Müştəri məmnuniyyəti və şikayətlərin araşdırılması" idarəetmə sistemlərində qarşıya qoyulan bütün tələblərə sözsüz əməl etməyi;

- ❖ "Qala Sığorta" ASC-də ölçülən keyfiyyət məqsədlərini təyin etməklə və ardıcıl olaraq onları yoxlamaqla, eləcə də həmin məqsədlərə çatmaq üçün mövcud olan bütün imkanlardan istifadə etməklə Keyfiyyət və Müştəri məmnuniyyəti və şikayətlərin araşdırılması idarəetmə sistemlərini fasiləsiz olaraq təkmilləşdirməyi;

- ❖ Personalın təhlükəsizliyinə, sağlamlığına və Cəmiyyətin göstərdiyi xidmətin keyfiyyətinə təsir göstərən bütün risk faktorlarının minimuma endirilməsinə nail olmağı;

- ❖ "ISO 9001 Keyfiyyət" və "ISO 10002 Müştəri məmnuniyyəti və şikayətlərin araşdırılması" idarəetmə sistemlərinin daimi inkişafını təmin etmək üçün işçi heyətin davamlı olaraq maarifləndirilməsi, peşəkarlığının artırılması istiqamətində bütün vasitə və imkanlardan maksimum dərəcədə istifadə edilməsi, eləcə də işçilərlə məsləhətləşmələrin aparılması və onların iştirakının təmin edilməsi;

- ❖ Keyfiyyətin İdarə Edilməsi Sistemi "Qala Sığorta" ASC-nin işçilərini Cəmiyyətin fəaliyyətində maraqlı tərəflərin tələblərinə cavab verən məhsuldar, peşəkar və əlverişli iş şəraiti ilə təmin edir, sığortalılara, sığortaolunanlara və faydalanan şəxslərə aid məlumatların məxfiliyini qanunla müəyyən olunmuş qaydada qoruyur.

- ❖ Heç bir halda Keyfiyyətdə güzəştə getməməyi əsas keyfiyyət siyasəti olaraq qəbul edir.

Nəşr №/tarixi: 01/11.01.2022
Rev.№: 00

Rev tarixi:
İS - FR - 001

**"Qala Sığorta"**
**ASC-nin İdarə**
**Heyətinin sədri**